**SEVINC QASIMOVA**
***AMEA-nın Folklor İnstitutu***

# AZƏRBAYCANDA MIFOLOLOJİ TƏDQİQATLARDAN BİRİNƏ DAİR

İyirminci əsrdə Azərbaycanda folklorşünaslıq elminin yaranması, təşəkkül tapması və formalaşmasında böyük xidmətləri olan görkəmli alimlərimizdən biri də Məmmədhüseyn Təhmasibdir. Ümumiyyətlə, ötən əsr folklorşünaslığımızı bu böyük alimsiz təsəvvür etmək mümkün deyildir. Onun Azərbaycan folklorşünaslığının bir sıra nəzəri məsələləri barədə söylədiyi mülahizələri müstəsna əhəmiyyətə malikdir. Məhz bu səbəbdən də ondan sonra gələn tədqiqatçılar, xüsusən də xalq yaradıcılığı ilə məşğul olan mütəxəssislər araşdırmalarında Məmmədhüseyn Təhmasibə istinad edirlər. Bu görkəmli alim təkcə yaradıcılığı ilə folklorşünaslığımızda iz qoymamış, həm də yetirdiyi görkəmli folklorşünaslarla özündən sonra elmimizə böyük irs qoyub getmişdir.

M.H.Təhmasibin folklorşünaslıq fəaliyyəti geniş və əhatəlidir.Onun xalq ədəbiyyatımızın müxtəlif sahələrinə dair maraqlı və orijinal araşdırmaları vardır. Biz hələlik onlardan biri haqqında söz açmaq istəyirik. Bu, alimin 1946- cı ildə " Vətən uğrunda" jurnalının 1-ci nömrəsində (səh. 79-72) çap etdirdiyi"Azərbaycan xalq ədəbiyyatında div surəti" məqaləsidir. Tədqiqatçı öncə folklorşünaslıqla bağlı nəzəri fikirlərə toxunur. Avropada yaranmış "əsatirçilər" məktəbinin Rusiyada da F.İ.Buslayev, A.F.Afanasyev, Ü.F.Müller və başqa bir çox görkəmli alimlər tərəfindən davam və inkişaf etdirildiyini (2,20) deyir, sonra "əsatirçilər"in müsbət və mənfi cəhətlərinə öz münasibətini bildirir.

Bundan sonra isə Azərbaycanda ilk dəfə olaraq mifologiyamızın əsas surətlərindən biri olan Div barədə tədqiqata başlayır. İlk öncə onu demək lazımdır ki, Avropada folklor nəzəriyyələri yaranıb inkişaf etdikcə Azərbaycan folklorunun öyrənilməsi də diqqət önünə çəkilirdi. Müxtəlif

xalqlar öz folklorunu həmin nəzəriyyələr əsasında tədqiqatlara cəlb etsələr də Azərbaycanda bu iş ləng inkişaf edirdi. Dünya xalqları Amerikanın kəşfindən sonra nəinki burada cəngərlliklərdə yaşayan aborigenlərin folklorunu, eləcə də ibtidai düşüncəyə malik xalqların mifologiyasini toplayıb nəşr edir və müxtəlif səviyyəli tədqiqatlara cəlb edirdilər. Bu işlər Cənubi Qafqazda da aparılırdı. Azərbaycan elmi isə bu sahədə hələ geridə qalırdı. Rus tədqiqatşıları yeri gəldikcə öz araşdırmalarında Güney Qafqazda, Şimali Qafqazda yayılan gürcü, osetin, adıgey, abxaz, erməni mif yaradıcılığına toxunur, onları tədqiqatlara cəlb edir, Azərbaycan mifologiyasının üzərindən isə sükutla keçir, bəzən də bu xalqın öz mifologiyası yoxdur, onlar "türk mifologiyası çevrələrindən çıxa bilməyiblər" deyə yanlış hökmlər verirdilər. Azərbaycan alimlərini pantürküst, panislamist kimi də qələmə verməklə bu istiqamətlərdə tədqiqatçıların qarşısını almağa çalışırdılar. Belə bir vaxtda məhz bu yanlış meyllərə qarşı çıxan M.H.Təhmasib özünün iki məşhur məqaləsini yazmaqla deyilənləri təkzib etdi. Azərbaycan mifologiyası var, deyə səsini ucaldan M.H.Təhmasib "Nağıllarımizda div sürəti" və "Əfsanəvi quşlar" məqalələrini yazdı. Bununla da Azərbaycan mifologiyasının öyrənilməsinin əsasını qoydu. Araşdırıcı bu məqalələri ilə təkcə mifologiyamızın qaynaqlarından söz açmadı, eyni zamanda onun hüdülarını müəyyənləşdirdi, çox dərin kökləri üzərində geniş dayandı. Zərdüşt, türk mifologiyasından, eləcə də dünya mifologiyasından gəlmə sujet və motivlərin köklərini açıqladı. Bütün bunlarla bərabər müəllif əslində mifologiyamızın öyrənilməsi ilə bağlı kifayət qədər məlumatın nağıl, dastan, eləcə də başqa xalq ədəbiyyatı nümunələrində geniş yayıldığını əsaslandırdı. M.H.Təhmasib bu məsələlərdən bəhs edərkən yazır: "Həmin bu əsatiri surətlərin ən yaxşı nümunələrindən biri də bu məqalədə haqqında danışmaq istədiyimiz div sürətidir (2,79-82).

Tədqiqatçı birbaşa div obrazını təhlilə gətirməkdən ötrü "Məlikməmməd" nağılına müraciət edir, fikirlərinə belə başlayır: "Biz "Məlikməmməd" nağılından gördük ki, div şər Allahı Əhrimənin ən başlıca köməkçisi olaraq,Ahuraməzdanın bütün təzahürlərinə qarşı amansız və daim mübarizə edir" (1,22).

Göründüyü kimi,müəllif elə ilk cümlədəncə div obrazının funksiyasını düzgün təyin etmiş, işığın düşməni, qaranlıq məbudu olduğunu söyləmişdir. Özü də müəllif bu fikrini əsaslandırır, "Avesta" ya üz tutur, göstərir ki, "Avesta" da Ahuraməzda insanlar üçün iki əsas nemət yaratmışdır". Bunlardan birincisi günəş, ikincisi isə yağışdır. Qalan başqa nemətlər hamısı bu əsasdan doğur (1,23). Bu fikirlərdən sonra M.Təhmasib "Avesta"da odla zülmət arasında mübarizə ilə bağlı ayindən söhbət açaraq yazır:

"Gecənin birinci yarısında Ahuraməzdanın oğlu atar-atəş –od ev sahibini bu sözlərlə köməyə çağırır: Ev sahibi, qalx! Paltarını gey! Belini bağla! Əllərini yu! Mənə odun doğra gətir ki,mən sənin təmiz yuyulmuş əllərinlə gətirilmiş təmiz odunla yanım. Budur, divlərin yaratmış olduqları zülmət mənimlə mübarizəyə gəlir. O, məni məhv etmək istəyir».

Məqalədən bir daha məsələyə dərindən yanaşıldığı məlum olur.Belə ki (1,22) tədqiqatçı div obrazı haqqında fikir söyləmək üçün əvvəlcə obyekt olaraq "Məlikməmməd" nağılını götürür, orada çıxış edən bu mifik surətlə bağlı öz mülahizələrini irəli sürür. Lakin az sonra müəllif bu obrazla bağlı daha qədim mənbəyə - "Avesta" mətninə müraciət edir, işıqla qaranlığın mübarizəsi ayinindən misal gətirməklə fikirlərini daha ciddi əsaslandırır. Divin qaranlıq qüvvələrin tərəfində çıxış etdiyini diqqət önünə çəkir və bununla bağlı mülahizələrində iki bənd –iki tezis yürütməklə fikirlərini bir qədər də dərinləşdirir. Bu parçada diqqəti cəlb edən birinci məsələ odun Ahuraməzdanın oğlu adlandırılması məsələsidir. Qədim əasatirdə bu, doğrudan da belədir. Od, eləcə də işığın yaradıcısı olan günəş Ahuraməzdanın bəzən oğlu, bəzən hər şeyi görən gözü, bəzən də öz təzahürü - əksi adalandırılmaqdadır (1,23).

M.H.Təhmasib div obrazının səciyyəsini açmaq üçün bu mifik görüşlərə toxunmuş, bununla da əslində cəmiyyətdə əksliklərin mövcud olduğunu göstərmişdir, təbiətdə əksliklərin mübarizəsi qanununun mövcud olduğunu diqqətə çəkmişdir. Bu fikri əsas tutaraq işığın düşməni olaraq əks qütbdə dayanan div obrazının mahiyyətini açmağa önəm vermişdir. İkinci məsələ isə divlərin doğrudan-doğruya zülmətin yaradıcısı adlandırılmasıdır. "Məlikməmməd"dən göründüyü üzrə, nağıllarımızda divlərin əsas etibarilə zülmətdə, qalaçalarda yaşamaqları da həmən bu etiqadı əks etdirir (1,23). Bu

yolla M.H.Təhmasib div obrazının mahiyyətini açmaq üçün birbaşa nağıl mətninə üz tutur. Orada çıxış edən divlərin qalaçalarda yaşamalarının sirrini bilavasitə onların qaranlıq dünya ilə bağlılığında axtarır və doğru-dürüst nəticələrə gəlir.

AMEA-nın müxbir üzvü, professor Azad Nəbiyev «Azərbaycan şifahi xalq ədəbiyyatı» adlı ali məktəb dərsliyinin «Sehrli nağıllar» bölməsində «Məlik Məhəmməd» nağılından yazarkən qeyd etmişdir: "Məlik Məhəmməd" nağılı göründüyü kimi zərdüşt təsəvvürləri ilə bağlı olduğu kimi, bu əski dünyagörüşünün ayrı-ayrı atributlarını tam halda yaşadıb bu günə yetirən, sehrli nağılın ölçü və qəliblərinin epik düşüncənin dərin qatlarında yaranıb yayıldığını göstərən nağıllarımızdandır" (3,329).

M.H.Təhmasib daha sonra göstərir ki,divlərin günəşə qarşı çıxmalarının mifik nişanələrinə müasir dövrdə rast gəlinir. O, bu cür nəticələrin SMOMPK məcmuəsində də özünə yer aldığını misal çəkir.Xalq ədəbiyyatını toplamaqla məşğul olmuş T.Bayraməlibəyov orada verdiyi mətnə müraciət etməklə fikrini əyaniləşdirə bilir:

"Ay və günəş tutulduğu zaman müsəlmanlar mis qabları bir-birinə vurar və güllə atarlar.Bununla onlar cinləri,divləri qorxutmaq və onların tutub həbs etmiş olduqları ayı,günəşi qurtarmaq istəyirlər.Müsəlmanların əqidəsinə görə, həmən divlər,cinlər ayı və günəşi tutur, dördüncü göydə olan böyük bir gölün içərisinə salırlar, insanlar səs-küy qopardıqda isə qorxur və onları buraxırlar.Müsəlmanların əqidəsinə görə, onlar metal şeylərin səsindən çox qorxurlar.(1,23-24)

Bu mətnə oxşar mətnlərin və mifik nişanların bu günün özündə belə yaşaması və mövcud olması inkarolunmazdır. Bu gün də Günəşin,yaxud Ayın üzü tutularkən azərbaycanlılar mis qazanı, qab-qacağı döyüb danqıldadırlar. Bununla da elə güman edirlər ki, ayı, yaxud günəşi qorxunc qüvvələrin əlindən xilas etmiş olurlar. Bu mənada M.H.Təhmasibin fikri də özünü doğruldur ki, bu tipli mifik əfsanələr bu gündə də səslənməkdədir.

Tədqiqatçı bu səpkidə fikirlərini şərh edib əsaslandırdıqdan sonra maraqlı bir tezis də yürüdür və dediklərini tam isbat etməyə nail olur. Alim iddia edir ki, divlər heç də bu gün bizim düşündüyümüz mənada əzəl

çağlardan qaranlıq məbud hesab edilməmişlər. Bəs niyə belə olmuşdur? sualına müəllif çox gözəl aydınlıq gətirir:

"Ümumiyyətlə, dinlər tarixindən görünür ki, hər bir yeni din ortalığa çıxdığı zaman özündən qabaqkı dinə, yaxud xalqın ictimai həyata olan baxışlarına, qənaətlərinə zidd getmiş, onu ya tamamilə, yaxud da qismən məhv etməyə, bu mümkün olmadığı təqdirdə özünə əlverişli bir hala salmağa çalışmışdır (1,33).

Alim fəlsəfə qanunları ilə gedərək və din tarixinə dərindən bələd olduğundan, dediklərini bu minvella sübut etməyə müvəffəq olmuşdur. Özü də divin öz əvvəlki müsbət missiyasının dəyişməsinin kökünü, başlıca səbəbini eramızdan əvvəl meydana çıxmış zərdüştiliyin təsirində axtarmışdır:

"Əslində "Avesta"nın birinci əsas hissəsi olan "Vəndidad" tamamilə divlərin əleyhinə çevrilmiş eyhamlardan ibarətdir. Hətta bu sözün özü belə (Vəndidad) "Divlər əleyhinə mübarizə" sözlərinin müxtəlif şəklidir (1,32)

Görkəmli folklorşünas öz mülahizələrini digər folklor örnəkləri ilə müqayisədə də genişləndirib,divlərin"İbrahim","Tapdıq", "Məlikməmməd və Məlik Əmcəd", "Tüklücə" kimi nağılların timsalında odla, işıqla bağlılığını göstərir. Bundan başqa, divlərin musiqi ilə bağlılığından da söhbət açan tədqiqatçı yazılı ədəbiyyat nümunəsi olan "Şahnamə" motivlərində onların xeyirxahlıq rəmzi olduqlarını nəzərə çatdırıb yazır:

"Divin belə xeyirxah olduğunu biz qədim şərq əsatiri ilə çox bağlı olan Firdovsi "Şahnamə"sində də görürük. Məlum olduğu üzrə, burada divlər səltənəti rəngbərəng güllər, çiçəklər və gözəl səsli quşlarla dolu, daimi bir yaz,bahar səltənəti kimi təsvir olunmaqdadır. Hətta bu əsərə görə divlər Təhmurəzə otuz dildə yazmaq və oxumaq öyrədirlər (1,40).

Bir daha görürük ki, M.H.Təhmasib div obrazı ilə bağlı müşahidə və düşüncələrini təkcə şifahi xalq ədəbiyyatı materialları üzərində aparmaqla kifayətlənməmiş, həm də yeri gəldikdə qədim Şərq yazılı mənbələrindən də faydalanmışdır. Bu, bir tədqiqatçı olaraq alimin yetkin təfəkkürünün göstəricisi kimi dəyərləndirilməlidir.

Həm də müəllifin div obrazı ilə bağlı düşüncələrində, hərtərəfli araşdırma aparıb qiymətli mülahizələr söyləməsində zəngin bilik və dünyagörüşün dayandığını etiraf etməliyik. Belə ki,bu gün qorxunc, əfsanəvi

varlıq kimi təsəvvür etdiyimiz divlərin əzəlki çağlarda tamamilə bunun əksinə olduğunun aşkarlaması, özü də böyük fədakarlıqdır. Elə bu əsasla da müəllif div obrazına həsr.etdiyi məqaləsini yekunlaşdırır:

"Beləliklə, divlərin əsatiri bir surət olmaq etibarilə daha qədim əsatirdə bugünkünün tamamilə əksinə olaraq xeyirxahlıq qüvvəsi, hətta günəş-işıq və musiqi ilahəsi olduğu aydın görünməkdədir. Bu surətin bugünkü xalq ədəbiyyatımızda bu deyilənlərin daha çox əksini ifadə edən bir surətə çevrilməsinin səbəbi zərdüştlük və "Avesta"dadır. Yalnız bu yeni dini-fəlsəfi əsərin, bu yeni dünyagörüşünün təsiri nəticəsi olaraq, daha qədim əsatirdə günəşlə əlaqədar başlıca xeyirxah qüvvələrdən birisi olan div zülmətin yaradıcısı hesab edilən şər qüvvəsinə çevrilmişdir (1, 40).

M.H.Təhmasibin yekun fikirlərindən də o nəticə hasil olur ki, div surəti bu gün bizim düşündüyümüz və fikrimizin qəbul etdiyi kimi heç də mənfi imicdə olmamış, lap əski şüur çağlarında xeyiri ifadə etmişdir, işıqla və musiqi sənəti ilə bağlı əfsanəvi obraz olmuşdur. M.H.Təhmasib tərəfindən söylənmiş və aşkara çıxarılmış və həqiqətən bu gün də folklorşünaslığımızın diqqət mərkəzində olmalı,div obrazı birmənalı olaraq mənfi status daşıyan obraz kimi düşünülməməlidir. Demək, bir daha div obrazının mifik təfəkkürdə funksiyasının dəyişilməsi, müsbətdən mənfiyə doğru əvəzlənməsi cəmiyyətin inkişafı ilə bağlı olmuşdur.

## ƏDƏBIYYAT

1. M.H. Təhmasib. "Məqalələr", Bakı, «Elm», 2005
2. "Vətən uğrunda" jurnalı, №1, 1946
3. Azad Nəbiyev. "Azərbaycan xalq ədəbiyyatı". II hissə. Bakı, «Elm» nəşriyyatı, 2006

**С.А.Гасымова**

**Об одном мифологическом исследовании в Азербайджане**

**РЕЗЮМЕ**

В статье рассказывается об одной из выдающихся личностей азербайджанской фольклористики XX века М.Г.Тахмасибе. А также дается сведе-

ние о его статье «Образ дива в азербайджанской устной литературе», напечатанной ы 1946 году в первом номере журнала «Вэтэн угрунда».

**S.A.Gasimova**

**About one mythology research in Azerbaijan**

**SUMMARY**

In this article is told about one of the outstanding persons of Azerbaijan folkloristics of XX century M.G.Taxmasib. Also here is given information about his article "The apperance of Div in Azerbaijan oral literature" published in 1946 in the first number of the journal "Veten Ugrunda".